**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CİNAYƏT PROSESİNDƏ MEDİASİYA: NƏZƏRİ ASPEKTLƏRİ

İxtisas: 5612.01 – Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti

Elm sahəsi: Hüquq

**İddiaçı: Kişiyeva Aysel Zakir qızı**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Bakı Dövlət Universitetinin "Cinayət prosesi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Hüquq elmləri doktoru, professor
**Midhəd Seyidəhməd oğlu Qəfərov**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, dosent
**Mübariz Həsrət oğlu Mustafayev**

Hüquq üzrə fəlsəfə doktoru, dosent
**Asif Xanoğlan oğlu Qədirov**

Hüquq üzrə fəlsəfə doktoru, dosent
**Bəxtiyar Əbdürəhman oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri:

_____________ Hüquq elmləri doktoru, dosent
imza **Ayxan Xankişi oğlu Rüstəmzadə**

Dissertasiya şurasının elmi katibi:

_____________ Hüquq elmləri üzrə fəlsəfə doktoru
imza **Sahil Zahir oğlu Hüseynov**

Elmi seminarın sədri:

_____________ Hüquq elmləri doktoru, professor
imza **Kamil Nazim oğlu Səlimov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Cinayətkarlığa qarşı mübarizənin hüquqi formaları çərçivəsində klassik ədalət mühakiməsinin həyata keçirilməsinin effektivliyini və cinayət nəticəsində vurulan maddi ziyanın aradan qaldırılması üçün XX əsrin ortalarından etibarən ayrı-ayrı hüquq sistemlərində fərqli tendensiyalar yaranmağa başlamışdır. Bu tendensiyalardan biri də cinayət təqibinin alternativ həlli yolları ilə bağlıdır. Bu alternativlərdən biri olan ictimai təhlükəli əməlin törədilməsi ilə pozulmuş ictimai münasibətlərin mümkün olduğu qədər bərpasını təmin edən mediasiya institutu sosial kompromis baxımından mühüm əhəmiyyətə malikdir. Müsbət cəhətləri və tətbiq edildiyi ölkələrdə nəticələrinin uğurlu olması səbəbindən bu tendensiya tədricən beynəlxalq xarakter almış və müasir dövrdə cinayət mühakimə icraatının standartına çevrilmişdir. Azərbaycan Respublikasının da hüquqi ənənələrini bölüşdüyü Avropa Şurası çərçivəsində Nazirlər Komitəsi hüquq sistemində mediasiya ilə bağlı müddəalara dair dörd ayrıca akt qəbul olunmuşdur:

1) 21 yanvar 1998-ci il tarixli №R (98) 1 saylı Ailə mediasiyası haqqında tövsiyə;

2) 15 sentyabr 1999-cu il tarixli 19 saylı №R (99) Cinayət işləri üzrə mediasiya haqqında;

3) 5 sentyabr 2001-ci il tarixli Rec (2001) 9 saylı İnzibati orqanlar və tərəflər arasında məhkəmə baxışına alternativlər haqqında;

4) 18 sentyabr 2002-ci il tarixli Rec (2002) 10 saylı Mülki işlərdə mediasiya haqqında.

Cinayət prosesində mediasiya ilə bağlı Avropa Şurası Nazirlər Komitəsinin xüsusi aktı 15 sentyabr 1999-cu il tarixli R (99) 19 saylı "Cinayət işləri üzrə mediasiya haqqında" Tövsiyəsidir. Burada Avropa Şurasına üzv olan dövlətlərə cinayət işləri üzrə mediasiya ilə bağlı verilən tövsiyələr öz əksini tapmışdır. Bu tövsiyələrin Avropa Şurasına üzv dövlətlərin hüquq sistemlərində qüvvədə olan prinsiplər nəzərə alınmaqla həmin dövlətlərin milli qanunvericilik sistemlərində təsbit edilməsi nəzərdə tutulur. Bütün

bunlar Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində mediasiya hüquq institutunun kompleks tədqiqini aktuallaşdıran əsas faktor kimi çıxış edir.

Bununla yanaşı, hələ Avropa Şurası Nazirlər Kabinetinin 1985-ci il tarixli 11 saylı "Cinayət hüququnda və cinayət prosesində zərər çəkmiş şəxsin vəziyyəti haqqında" Tövsiyəsinin II hissəsində üzv dövlətlərin hökumətlərinə zərər çəkmiş şəxslə bağlı tədqiqatların aparılması və onların genişləndirilməsinə yardım etməklə yanaşı, mediasiya və barışıq sisteminin mümkün üstünlüklərini öyrənmək tövsiyə olunurdu. Bu mövzuda tədqiqatın aparılması milli hüquq sistemində mediasiyanın üstünlüklərinin ortaya çıxarılması və interpretasiyası üçün xüsusi əhəmiyyət kəsb edir.

Hər bir cəmiyyətdə insanlar arasında barışığın əldə olunması prosesinin tarixən formalaşmış özünəməxsus xüsusiyyətləri mövcuddur. Belə cəhətlər müxtəlif elementlərin qarşılıqlı təsiri ilə formalaşmış və obyektiv xarakter daşıyır. Onları öyrənmək və barışığın əldə olunmasına yönələn fəaliyyət kimi mediasiyada tətbiq etmək bu institutun yaradılması və funksional fəaliyyətini təmin etmək üçün əsas vəzifələrdən biridir.

Mediasiyanın hüquq sistemində təsbiti və fəaliyyəti ilk növbədə zərər çəkmiş şəxsin cinayət prosesində hüquqlarının müdafiəsi ilə bağlıdır. Cinayət nəticəsində zərər çəkmiş şəxsə vurulan maddi, mənəvi və fiziki ziyan əməlin kriminallaşması üçün tələb olunan şərtlər sisteminə daxildir. Məhz bu səbəbdən törədilən əmələ görə cinayət mühakimə icraatı vurulan ziyanı aradan qaldırmırsa, faktiki olaraq ədalət həyata keçirilməmiş olur. Ona görə də, 12 noyabr 1995-ci il tarixli Konstitusiyamızın 68-ci maddəsinə 26.09.2016-cı il tarixdə edilən dəyişikliklərlə zərər çəkmiş şəxsin cinayət nəticəsində vurulan ziyanın əvəzinin dövlət tərəfindən ödənilməsini tələb etmək hüququ müəyyən edildi. Qeyd olunan maddəyə görə cinayətdən, habelə hakimiyyətdən sui-istifadə nəticəsində zərər çəkmiş şəxsin hüquqları qanunla mühafizə edilir. Zərər çəkmiş şəxsin ədalət mühakiməsinin həyata keçirilməsində iştirak etmək və ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır. Bundan başqa, hər kəsin dövlət orqanlarının yaxud onların vəzifəli şəxslərinin qanuna zidd hərəkətləri və ya

hərəkətsizliyi nəticəsində vurulmuş zərərin dövlət tərəfindən ödənilməsini tələb etmək hüququ təsbit edilmişdir. Müasir dövrdə cinayət təqibinin cinayət mühakimə icraatında əhəmiyyəti o dərəcədə artmışdır ki, faktiki cinayətdən zərər çəkmiş şəxsə vurulan ziyan ödənilmədən ədalətli mühakimənin həyata keçirildiyini iddia etmək olmur. Bu baxımdan mediasiyanın əhəmiyyəti zərər çəkmiş şəxsin hüquqi vəziyyətinin müdafiəsiz formaya düşməsinin qarşısının alınması ilə bağlıdır. Məhz mediasiya cinayətin törədilməsi zamanı həyata keçirilən fəaliyyəti bilavasitə zərər çəkmiş şəxsin iradəsindən asılı vəziyyətə salır və onunla bağlayır. Mediasiyanı təkcə zərər çəkmiş şəxsin hüquqları baxımından deyil, təqsirləndirilən şəxsin hüquqları baxımdan əhəmiyyətli bir hüquq institutu kimi nəzərdən keçirmək vacibdir. Bu hüquq institutu təqsirləndirilən şəxsə cinayəti törətməklə vurduğu ziyanı aradan qaldırmaq və ağır cəza almadan islah olunmasını sübut etmək imkanı verir. Ona görə də bu hüquq institutu hər iki tərəfin hüquqları baxımından və onların hüquqi statusu baxımdan əhəmiyyət daşıyır.

Mövzunun aktuallığı eyni zamanda dövlət başçısının "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nə dair 6 dekabr 2016-cı il tarixli Fərmanında xırda və orta sahibkarlar arasında yaranan mübahisələrin alternativ həlli mexanizmi olaraq mediasiya institutunun inkişaf etdirilməsi məsələsinin əsas prioritetlərdən biri kimi müəyyənləşdirilməsi ilə bağlıdır. Qeyd olunan sənəddə qanunvericilikdə mediasiya hüquq institutunun inkişafının perspektivləri təsbit edilmiş, bu institutun hüquq müstəvisində fəal tətbiqi və inteqrasiyasına hələ müstəqilliyin ilk illərindən başlanıldığı bildirilmişdir. Göstərilən amillər ölkəmizdə mediasiya institutunun mübahisələrin məhkəmədənkənar həlli metodu kimi qanunvericilik əsaslarının möhkəmləndirilməsinə, eləcə də bu institutun milli hüquq sisteminə interpretasiyasının intensivləşdirilməsinə əsas yaratdı.

Bundan əlavə mövzunun aktuallığını təsdiq edən faktlardan biri də Avropa Şurasının 2018-ci il üzrə "Həbsxanalar və məhkumlar" adlı hesabatında Azərbaycanın Avropa Şurasına üzv olan ölkələr arasında məhkumların sayına görə üçüncü yerdə olmasının qeyd

edilməsidir. Bu göstərici ilə Azərbaycan Rusiya Federasiyası və Gürcüstandan geri qalır. Azərbaycan Respublikasının Prezidenti 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcrid etmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Fərman imzaladı. Bu Fərman sayəsində Ədliyyə Nazirliyinin verdiyi hesabata əsasən ölkəmizdə 2015-ci ildə penitensiar müəssisələrdə saxlanılanların sayı 24 mindən çox idisə, 2018-ci ildə bu rəqəm 21800 olub. Nəzərə alsaq ki, hər bir məhkumun bir günlük xərci 10 manat civarındadır, bu rəqəm il ərzində 80 milyon manatdan çox edir. Bu isə büdcədən nə qədər vəsaitin ayrılmasına səbəb olur. Əgər cinayət prosesində mediasiya tətbiq edilərsə bu göstərici daha da azalacaq. Bu fakt artıq mediasiyanı tətbiq edən ölkələrin təcrübəsində öz təsdiqini tapmışdır. Eyni zamanda mediasiyanın böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərin törədilməsi zamanı yaranmış münasibətlərin həll edilməsinə şamil edilməsi cəza sistemində cəzaları liberallaşdıracaq, vətəndaşlarda məhkumluğun yaranmasının qarşısını alacaqdır.

Mövzunun aktuallığını nümayiş etdirən ən mühüm fakta isə Azərbaycan Respublikası Milli Məclisində "Mediasiya haqqında" Qanun (bundan sonra Qanun) lahiyəsinin müzakirəyə çıxarılması və elə ilk oxunuşdan qəbul edilməsini göstərmək olar. 29.03.2019-cu il tarixində ölkəmizdə 39 maddədən ibarət Qanun qəbul edildi. Qanunun 3-cü maddəsində mediasiyanın tətbiq dairəsi göstərilir. Maddəyə əsasən, mediasiya aşağıdakı sahələr üzrə tətbiq olunur:

- mülki işlər və iqtisadi mübahisələr (xarici elementli mübahisələr də daxil olmaqla)
- ailə münasibətlərindən irəli gələn mübahisələr;
- əmək münasibətlərindən irəli gələn mübahisələr;
- inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr.

Qanun qəbul edilməmişdən əvvəl də Azərbaycan qanunvericiliyində mübahisələrin alternativ həlli nəzərdə tutulurdu, lakin onlardan istifadə göstəriciləri yüksək deyildi. Çünki hüquqi müstəvidə mübahisələrin alternativ həlli üsullarının tətbiqini təmin edən zəruri hüquqi mexanizmlər yox idi. Bundan əlavə

mübahisələrin alternativ həlli ilə bağlı maarifləndirmə, mübahisələrin həllinin alternativ üsullarının mahiyyəti və əhəmiyyəti haqqında vətəndaş cəmiyyətinin bilik dairəsi məhdud idi.

Əfsuslar olsun ki, Qanunun 3-cü maddəsində mediasiyanın tənzimlədiyi sahələrə cinayət hüquq münasibətləri daxil edilməmişdir. Halbuki müasir reallıqda buna böyük ehtiyac var. Bunun üçün ilk növbədə məsələnin beynəlxalq hüquqi aspektlərinin araşdırılması zəruridir. Cinayət prosesində mediasiyanın hüquqi əsasları Azərbaycan Respublikası Cinayət Məcəlləsinə edilən son dəyişikliklərlə ciddi şəkildə təkmilləşdirilmişdir. 20 oktyabr 2017-ci il tarixdə Cinayət Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərlə mediasiyanın əsaslarında mühüm cəhətlər meydana çıxmışdır. Cinayət Məcəlləsinin 73, 73-1 və 73-2-ci maddələrində mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində bəzi cinayətlərin zərər çəkmiş şəxslə barışma və müəyyən miqdarda dövlət büdcəsinə məbləğ ödənilməsi şərti ilə cinayət məsuliyyətinə xitam verilməsi nəzərdə tutulmuşdur. Bu hallarda mediasiya prosesinin başlanması və bu prosedurun həyata keçirilməsi zəruridir. Lakin qanunvericilikdə bunun üçün zəruri təşkilati-prosedur məsələlər həll olunmadığı üçün cinayət prosesində bu institutun effektiv realizəsi mümkün deyildir.

Azərbaycan Respulikasının cinayət prosesində mediasiyanın tətbiqinin mümkünlüyü və bunun üçün zəruri hüquqi mexanizmin nəzəri bazasının formalaşdırılması, bu institutun mahiyyəti və məzmunu barədə hüquq düşüncəsində lazımi idealların formalaşdırılması, hüquq ictimaiyyətində bu hüquq institutuna etimadın zəruriliyi fikrini yaratmaq və sair məqsədlər üçün milli cinayət prosesi elmində mediasiya mövzusunun nəzəri və təcrübi aspektlərinin araşdırılması aktual sayılır.

Mövzunun təcrübi əhəmiyyətini təsdiq edən əsas faktlardan biri də, tərəflərin barışması ilə bağlı cinayət təqibinə xitam verilən cinayət təqibi üzrə materialların sayının kifayət qədər olmasıdır. Təqsirləndirilən şəxslə zərər çəkmiş şəxslərin barışması cinayətlə bağlı onlar arasında yaranan gərginliyin aradan qaldırılması üçün də mediasiya institutu xüsusi əhəmiyyət kəsb edir.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə, Azərbaycan Respublikası cinayət prosesində mediasiya probleminin ayrı-ayrı aspektlərinə dair məsələlər milli hüquq ədəbiyyatında cinayət işinə xitam verilməsi institutu çərçivəsində tədqiq olunmuş, onun beynəlxalq hüquq aspektində təhlilinə kompleks diqqət ayrılmamışdır.

Nəzərdən keçirilən problemin tədqiqinə M.Ə.Cəfərquliyev, C.H.Mövsümov, X.C.Ələkbərov, R.İsgəndərov, M.H.Mustafayev, K.Səlimov, F.Cavadov, F.M.Abbasova, F.Y.Səməndərov, A.X.Kişiyev, C.İ.Süleymanov, M.S.Qəfərov kimi mötəbər milli müəlliflər və xarici müəlliflərdən isə V.L.Qolovko, X.Besemer, X.Zer, N.N.Apostolova, A.A.Şatlikova, E.E.Zaquba, N.S.Şatixina, M.D.Karjanov və s. xüsusi diqqət yetirmişlər.

Qeyd olunan milli müəlliflər bu məsələni digər mövzuların tərkib hissəsi kimi araşdırmışdılar. Bu mövzuda milli hüquq ədəbiyyatında yeni cinayət-prosessual qanunvericilik qəbul edildikdən sonra müstəqil tədqiqat əsəri yoxdur. Bunun əksinə olaraq xarici hüquq ədəbiyyatında, xüsusilə Rusiya, Türkiyə, Almaniya, Fransa cinayət prosesində mediasiya ilə bağlı çoxlu elmi əsərlərə rast gəlmək olar. Mediasiyanın beynəlxalq aspektləri kontekstində milli qanunvericiliyin təhlilinə dair isə elmi ədəbiyyatda ayrıca elmi əsərə rast gəlinməmişdir. Bu mövzuda milli hüquq ədəbiyyatında ilk tədqiqatlardan biri R.H.İskəndərovun 1975-ci ildə yazdığı "İbtidai istintaqda cinayət işinin xitamı" adlı namizədlik dissertasiyasıdır. Sonrakı dövrlərdə milli tədqiqatçılardan X.D.Ələkbərovun bu mövzuda bir neçə monoqrafik əsəri vardır. Bu sırada 1992-ci ildə müdafiə etdiyi "Cinayətkarlıqla mübarizədə kompromissin mümkünlüyü problemləri" adlı doktorluq dissertasiyasını, 2001-ci ildə çap olunan "Cinayət məsuliyyətindən azad etmə" monoqrafiyasını və bundan başqa çoxlu digər əsərlərini göstərmək olar. Milli hüquq ədəbiyyatında digər bir dissertasiya 2006-cı ildə müdafiə olunmuş M.Ə.Zeynalovun "Cinayət prosesində kompromissin mümkünlüyü" adlı namizədlik dissertasiyasıdır. Rusiyada bu mövzuda çoxlu sayda əsərlər yazılmışdır.

Qeyd olunan milli və xarici müəlliflərin tədqiqatları cinayət prosesi elminin inkişafına əsaslı və mühüm töhfələr vermişdir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, həmin əsərlər, bir qayda olaraq, müvafiq xarici ölkələrin qanunvericiliyi konteksində və başqa mövzunun baxış bucağı altında yazılmış, mediasiya ilə bağlı məsələlərin araşdırılmasında beynəlxalq hüququn standartları nəzərə alınmaqla yazılmış kompleks tədqiqat əsəri yoxdur. Elmi ədəbiyyatda bu mövzuda irəli sürülən bir çox təklif və tövsiyələrin əsaslandırılmasında yeniliklər müşahidə olunmur. Onların bir çoxu köhnə və ya klassik ədalət mühakiməsinin ideoloji əsaslarına söykənir ki, bu da bərpaedici ədalət mühakiməsi baxımından səmərəli və effektiv sayıla bilməz.

Bu mövzuda müasir qanunvericiliyi nəzərə almaqla həyata keçirilmiş və müasir dövrün nəzəri konsepsiyalarını əks etdirən milli cinayət-prosessual hüquq ədəbiyyatında müstəqil monoqrafik tədqiqat əsəri yoxdur. Bu əsər Azərbaycan Respulikasının cinayət prosesində və beynəlxalq hüquqda mediasiya məsələlərinə həsr olunmuş müstəqil monoqrafik xarakterli tədqiqat əsəridir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti qismində müasir cinayət mühakimə icraatında mediasiya və onun hüquqi tənzimetmə mexanizmində yeri və rolu ilə bağlı mövcud olan beynəlxalq standartların tənzimlədiyi ictimai münasibətlər çıxış edir.

Tədqiqatın predmetinə araşdırılan problemə həsr edilmiş ümumi nəzəri və xüsusi cinayət-prosessual hüquq ədəbiyyatları, Azərbaycan Respublikasının, bəzi xarici dövlətlərin cinayət-prosessual qanunvericilikləri, Azərbaycan Respublikasının, eləcə də xarici dövlətlərin mediasiya institutu haqqında Qanunları, rəsmi statistika və Avropa Şurası Nazirlər Komitəsinin tövsiyələri daxildir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədini mediasiyanın cinayət-hüquqi mübahisələrinin aradan qaldırılmasında yeri və rolunu, klassik ədalət mühakiməsi çərçivəsində bu institutun inkişafının mümkün olub-olmamasını aydınlaşdırmaq, məsələ ilə bağlı milli qanunvericiliyin beynəlxalq hüququn tələbləri baxımından qiymətləndirilməsi və mövcud çatışmamazlıqları ortaya çıxarmaqla onların həlli yollarını təklif etmək, bununla bağlı milli qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təkliflər və təcrübi tövsiyələr hazırlamaq təşkil edir. Qarşıya qoyulan məqsədə nail olunması istiqamətində aşağıdakı vəzifələr müəyyən olunmuşdur:

- cinayət prosesində mediasiyanın mahiyyəti, əhəmiyyətini müəyyən etmək və ona müəllif anlayışı vermək;

- cinayət prosesində mediasiyanın əsaslarına dair Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyini retrospektiv təhlil etmək;

- yeni qəbul edilmiş və təzəcə qüvvəyə minmiş Qanundakı boşluqların araşdırılması, eləcə də bu boşluqların aradan qaldırılması yolları;

-mediasiya institutunu cinayət prosesi prinsipləri və vəzifələri konteksində təhlil etmək;

- mediasiya institutu ilə bağlı beynəlxalq standartları milli qanunvericiliklə müqayisə etmək;

- mediasiya sahəsində bəzi xarici ölkələrin qanunvericiliyini araşdırmaq;

- ibtidai araşdırma və məhkəmə mərhələlərində mediasiyanın hüquqi əsaslarını təhlil etməklə aktual problemləri ortaya çıxarmaq və onların həlli yollarını təklif etmək.

**Tədqiqatın metodları.** Dissertasiya işinin əsasını dialektik fəlsəfənin əsas müddəaları təşkil edir. Tədqiqat aparılarkən xüsusi olaraq formal-hüquqi, müqayisəli tədqiqat metodundan istifadə olunmuşdur. Araşdırma zamanı analiz, sintez, induksiya və deduksiya, eləcə də məntiqi analiz, müqayisəli-təhlil, sistemli yanaşma və digər elmi idrakın metodlarından geniş istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın qarşıya qoyulan vəzifələrinə uyğun onun məzmunundan çıxış edərək aşağıdakı yeni elmi müddəalar müdafiəyə çıxarılmışdır:

1. Cinayət prosesində mediasiya institutu - təqsirləndirilən şəxslə (şübhəli şəxslə) zərər çəkmiş şəxs arasında cinayətin nəticələrinin aradan qaldırılması ilə bağlı mediatorun həyata keçirdiyi fəaliyyətdə yaranan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu kimi başa düşülür.

2. Mediasiya məsələlərinin retrospektiv təhlili onu deməyə əsas verir ki, bu institut indiki anlamında müasir hüquq sisteminin formalaşmağa başladığı dövrdən bəri mövcud olmamışdır. Azərbaycan ərazisində bu institut fərqli formada şəriət məhkəmələri

tərəfindən tətbiq olunurdu. Mediasiya məsələlərinin həlli şəriət məhkəmələrində qazinin üzərinə düşən əsas vəzifələrdən biri idi. Yəni cinayət nəticəsində dəymiş ziyanın ödənilməsi və tərəflərin barışması ilə məsuliyyətdən azadetmə qazinin əsas vəzifəsi idi. Buna görə də, mediasiya məsələlərinin müasir dövrdə milli hüquq sistemində təfərrüatı ilə geniş tənzimlənməsinin tarixi əsasları və şərtləri mövcuddur.

3. Cinayət məsuliyyətinin labüdlüyü prinsipinin təzahürlərini cinayət mühakimə icraatının vəzifələri sistemində də müşahidə etmək olar. Cinayət- Prosessual Məcəlləsinin 8.0.5-ci maddəsinə görə cinayət mühakimə icraatının vəzifələrindən biri **cinayət törətməkdə ittiham olunan şəxslərin təqsirini müəyyən edərək onları cəzalandırmaq və təqsirsiz şəxslərə bəraət vermək məqsədi** ilə ədalət mühakiməsini həyata keçirməkdir. Buradan belə bir məntiqi nəticə çıxarmaq olur ki, ədalət mühakiməsinin həyata keçirilməsi məqsədi məhz **cinayətin törədilməsində təqsirli bilinən şəxslərin təqsirini müəyyən edərək onları cəzalandırmaqdır.** Başqa sözlə, ittiham olunan şəxslərin təqsirini müəyyən etməklə ona cəza təyin etmək arasında səbəb-nəticə əlaqəsi vardır və təqsiri olana hökmən cəza təyin olunmalıdır. Nəzərə almaq lazımdır ki, "prosessual qanunvericiliyə edilən son dəyişikliklər hüquq-mühafizə orqanlarının fəaliyyətinin əsas istiqamətlərini məqsəd baxımından dəyişdirmişdir. Belə ki, qanunvericilik artıq cinayət mühakimə icraatının aparılmasında əsas məqsədi cinayətkarlıqla mübarizə deyil, hər bir vətəndaşın qanunsuz qəsdlərdən qorunmasını ön plana çəkmişdir." Bu baxımdan hesab edirik ki, ədalət mühakiməsinin məqsədi heç bir halda təqsirli olan şəxslərin yalnız cəzalandırılması olmamalı, məhz ədalətin həyata keçirilməsi olmalıdır. Bu baxımdan ədalət mühakiməsinin məqsədləri sırasından cəzalandırmaq məqsədi çıxarılmalıdır.

4. Qanunun 3-cü maddəsinə mediasiyanın tətbiq dairəsinə aşağıdakı redaksiyada müvafiq bənd əlavə edilməlidir:

**3.1.5. cinayət hüquq münasibətlərindən irəli gələn mübahisələr.**

5. Mediasiya çərçivəsində şəxsin cinayət məsuliyyətindən azad olunması müvafiq əməlin törədildiyi və şəxsin ona aidiyyətinin

olduğunu təsdiqləsə də, əməli törədən şəxsin bu əməldə təqsirli olduğunu söyləməyə əsas vermir. Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun məsələdə mövqeyini və təqsirsizlik prezumpsiyasının tələblərini nəzərə alaraq hesab edirik ki, barəsində barışma ilə cinayət təqibinin xitam olunması haqqında qəbul olunmuş qərarın digər şəxslərin işləri üzrə hüquqi qüvvəsi Cinayət-Prosessual Məcəlləsinin 65.2-ci maddəsindəki kimi məhkəmə üçün məcburi hüquqi qüvvəsi olmamalıdır. Əks halda barəsində ittiham hökmü çıxarılmamış şəxsin zərər çəkmiş şəxslə barışması əsasında cinayət təqibinə xitam verilməsi haqqında qərarla əməlin törədilməsində təqsirli olduğunu iddia etmək olmaz. Bu şəxsin təqsirsizlik prezumpsiyasının pozuntusudur. Bu baxımdan CPM-in 65.2-ci maddəsinin qanundan çıxarılması zəruridir.

6. Şəxsin məsuliyyətdən azad olunması onun şəxsiyyətinin və ya törətdiyi əməlin ictimai təhlükəliliyinin aradan qalxması ilə bağlı ola bilər. Şəxsin iki və daha çox cinayəti eyni zamanda törətməsi halında cinayətlərdən biri üzrə barışma ilə bağlı məsuliyyətdən azadetmə mümkündürsə, bu zaman onun şəxsiyyətinin ictimai təhlükəliliyinin aradan qalxdığını iddia etmək olmur. Çünki bu halda şəxsin barışmaya aid olmayan cinayətlərlə mühakiməsi davam edir və bu, onun ictimai təhlükəli olduğunu təsdiqləyən əsas xüsusatdır. Ona görə də, barışma ilə bağlı məsuliyyətdən azad etmə əməlin ictimai təhlükəliliyinin aradan qalxması ilə əlaqəlidir.

7. Cinayət işinin başlanması haqqında zəruri olan bir çox məlumatların qanunla nəzərdə tutulmuş və nizamlanmış istintaq hərəkətlərini həyata keçirməklə əldə olunması mümkün olmadığı üçün onlar formasını dəyişərək digər prosessual hərəkətlər vasitəsilə toplanır. Məsələ burasındadır ki, bir çox hallarda sübuti əhəmiyyət kəsb edən mötəbər dəlillər təxirəsalınmaz istintaq hərəkətlərinin həyata keçirilməsi ilə əldə oluna və ya cinayət işi üzrə əhəmiyyətli hallar məhz bu vasitələrlə aydınlaşdırıla bilər. Belə vəziyyətdə cinayət təqibini başlamadan həmin halların müəyyən olunması mümkün olmur və faktiki olaraq təqib başlamadan mediasiyanın həyata keçirilməsinin səmərəliliyi aşağı düşmüş olur. Qeyd olunanları cinayət işi başlananadək istintaq hərəkətlərinin aparılması qadağasının ləğvinə dair tezisin əsaslandırmasına əlavə kimi

göstərmək olar. Bununla da, yan təsir kimi cinayət təqibini başlamadan mediasiya fəaliyyətinə dair beynəlxalq hüququn əsas tələbləri cinayət işi başlamadan istintaq hərəkətlərinin həyata keçirilməsinin mümkünlüyü ehtimalından çıxış edir. Bu səbəblərdən cinayət işi başlananadək istintaq hərəkətlərinin həyata keçirilməsinin qadağan olunması qanundan çıxarılmalıdır.

8. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-2-ci maddəsində əks olunan bir çox cinayətlər nəticəsində ziyan dövlətə vurulur ki, burada zərərin ödənilməsi ilə yanaşı, insan münasibətlərinə aid olan barışmanı şərt kimi qoymaq məntiqsiz olardı. Müvafiq cinayətlər üzrə barışma mümkün deyilsə, onda həmin maddələrlə bağlı məsuliyyətdən azadetmə sırf təqsirkarın fəaliyyəti ilə bağlı olaraq zərərin ödənilməsini nəzərdə tutur. Zərərin təqsirkar tərəfindən ödənilməsi səmimi peşmançılıqla bağlı məsuliyyətdən azadetmə adlanır. Qanunvericilik texnikasının normativ hüquqi aktın strukturu ilə bağlı tələblərini nəzərə alaraq Cinayət Məcəlləsinin 73-2-ci maddəsi 72-1-ci maddə kimi təsbit olunmalıdır.

9. Cinayət Məcəlləsinin 73.2, 73-1.1, 73-1.2 və 73-2-ci maddələrində göstərilən 129.1, 130.1, 131.2, 133.1, 143, 178.2, 179.2, 186.2.1, 187.2, 189-1.1, 189-1.2 189-1.2-1-ci maddələri üzrə cinayət təqibi ictimai ittiham qaydasında həyata keçirilir. İctimai ittihamlı işlərdə isə cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti olmadan dövlət orqanlarının təşəbbüsü ilə başlaya bilir. Belə halda zərər çəkmiş şəxs zərərin əvəzinin ödənilməsini tələb etmir və təqsirləndirilən şəxslə barışaraq cinayət təqibinin başlanmasını istəmirsə, təqibin başlanmasına dair müstəsna halları çıxmaq şərtilə nə zərurət vardır. Bu cinayətlər üzrə barışmanın cinayət təqibini istisna etməsi daha çox xüsusi ittihamlı işlərdə olduğu kimidir. Cinayət məsuliyyətindən azad etmənin əsası kimi zərər çəkmiş şəxsin təqsirkarla barışma faktının zərərin tam ödənilməsi ilə şərtləndirilməsi doğru sayıla bilməz. Barışma və zərərin tam ödənildiyi halında cinayət təqibinin istisna olunması törədilən əməli daha çox deliktə oxşadır və əməlin cinayət sayılmasını zəruri edən şərtlər qeyri-müəyyən olur. Problemin həlli kimi vəziyyətdən çıxış yolu kimi aşağıdakıları təklif edirik:

Cinayət-Prosessual Məcəlləsinin 39.1.9-cu maddəsində dəyişiklik edilərək onun məzmunu aşağıdakı kimi verilsin:

**“39.1.9. zərər çəkmiş şəxslə təqsirləndirilən şəxs barışdıqda (cinayət təqibi xüsusi ittiham qaydasında həyata keçirildikdə, habelə cinayət qanununun 73.2, 73-1.1, 73-1.2 və 73-2-ci maddələrində nəzərdə tutulmuş hallarda)”**

10. Cinayət-Prosessual Məcəlləsinin 280.4-cü maddəsinə görə cinayət işi üzrə icraata bu Məcəllənin 39.1.1, 39.1.2, 39.1.11 və 39.2-ci maddələrində qeyd olunan hallarla əlaqədar xitam verildikdə barəsində icraata xitam verilmiş şəxsin təqsirsizliyini şübhə altına alan müddəaların qərara daxil edilməsinə yol verilmir. Şəxsin əməlin törədilməsində təqsirli bilinməsinə əsaslı şübhələr olduqda belə onun təqsirli bilinməsinə qanunvericilik yol vermir ki, bu həm də onun təqsirsizliyinin şübhə altında qoyulmasını istisna etməlidir. Bu baxımdan CPM-də 39.1.11-ci maddəsindəki əsas da, 55.2-ci maddəyə daxil olunmadan bəraətin əsaslarından biri kimi bəraətverici əsaslarla xitam vermə kimi qanunda təsbit olunması zəruridir.

11. Son dəyişiklərə qədər CPM-də məhkəməyə hazırlıq mərhələsində icraata 40-cı maddədəki əsaslarla xitam verilməsi imkanı nəzərdə tutulmamışdır. Məhkəməyə hazırlıq mərhələsində cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi üçün əsaslar CPM-in 305.1-ci maddəsində təkcə 39-cu maddəyə göndəriş vardı. Həmin maddəyə görə məhkəmə hazırlığı mərhələsində cinayət təqibini istisna edən hallar müəyyən edildikdə, məhkəmə cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında əsaslandırılmış qərar çıxarırdı. Məhkəməyə hazırlıq mərhələsində barışma ilə bağlı icraata xitam verilməsi yalnız dövlət ittihamçısının təşəbbüsü ilə ola bilərdi. Məhkəmənin belə bir diskression səlahiyyətini məhkəməyə hazılıq mərhələsində də həyata keçirilməsi təsbit olunmalıdır. Ona görə də dissertasiya işimlə əlaqədar ilk məqalələrimdə 305.1-ci maddənin aşağıdakı məzmunda verilməsi təklif edilmişdir:

**“305.1. Məhkəmənin hazırlıq iclasında bu Məcəllənin 39 və 40-cı maddələrində nəzərdə tutulmuş hal (hallar) müəyyən**

**edildikdə məhkəmə cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında əsaslandırılmış qərar çıxarır.”**[1]

25.06.2020-ci il tarixdə qanunvericiliyə dəyişiklik edilərək qeyd olunan maddə aşağıdakı redaksiyada verilmişdir:

“305.1. Məhkəmənin hazırlıq iclası bu Məcəllənin 39-cu, habelə 40.3-cü və 40.4-cü maddələrində nəzərdə tutulmuş hallarda məhkəmə cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icraata xitam verilməsi haqqında əsaslandırılmış qərar çıxarır. Cinayət təqibini istisna edən hallar ittihamın bir hissəsinə aid olduqda cinayət işi üzrə icraata yalnız bu hissədə xitam verilir.” Dissertasiya işinin yazılması ərəfəsində qanunvericiliyə edilmiş bu dəyişiklik mövqeyimin haqlı olduğunu göstərir. Mediasiyanın tətbiq oluna biləcəyi cinayətlər sırasına ictimai-xüsusi ittihamlı cinayətlərin hamısı, bəzi ictimai ittihamlı işlərin əlavə olunması zəruridir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi onunla şərtlənir ki, o, 2000-ci ildə Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsi üzrə barışıq əsasında cinayət təqibinə xitam verməni özündə birləşdirən cinayət prosesində mediasiya institutuna dair beynəlxalq standartlar baxımından müqayisəli təhlilinə həsr edilmiş ilk kompleks xarakterli tədqiqat işidir. Bundan əlavə Qanun qəbul edildikdən sonra qanundakı boşluqların araşdırılması və bu boşluqların aradan qaldırılması ilə bağlı xarici ölkələrin bu sahədəki təcrübəsinin ümumiləşdirilməsi baxımından müqayisəli təhlilinə həsr edilmiş ilk kompleks xarakterli tədqiqat işidir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəzəri bazasını milli və xarici tədqiqatçıların əsərləri təşkil edir. Tədqiqatın təcrübi və nəzəri əhəmiyyəti ondan ibarətdir ki, nəzəri müddəalar, beynəlxalq müqavilələrin araşdırılması və təcrübi materialların təhlili əsasında hüquq tətbiqi təcrübəsi, habelə Azərbaycan Respublikası istintaq orqanları və məhkəmələrin

---

[1] Kişiyeva A.Z. Azərbaycan Respublikasının cinayət prosesində mediasiya: ümumi müddəalar // Qanun, 2017, № 03 (269).

fəaliyyətinin təkmilləşdirilməsinə kömək edəcək səmərəli nəticələr əldə edilmişdir. Tədqiqat işi, həmçinin, sonrakı elmi araşdırmalar məqsədilə, müxtəlif təhsil müəssisələrinin hüquq fakültələrində tədris olunması, habelə hüquq-mühafizə orqanları işçilərinin ixtisasartırması üçün də istifadə oluna bilər. Dissertasiyada irəli sürülən qanunvericilik təkliflərindən, milli hüququn beynəlxalq standartlara uyğunlaşdırılması, implementasiyası prosesində istifadə oluna bilər. İşin yazılmasında mediasiya ilə bağlı istintaq-məhkəmə təcrübəsinin rəsmi statistikası öyrənilmiş, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Ali Məhkəmənin mövqeyini əks etdirən ayrı-ayrı qərarlarından və istintaq-məhkəmə materiallarından istifadə edilmişdir. Dissertasiya işinin yazılması zamanı istintaq orqanları arasında sorğu keçirilmişdir.

**Tədqiqatın normativ əsasları.** Azərbaycan Respublikasının Konstitusiyasını, Cinayət-Prosessual Məcəlləsini, Cinayət Məcəlləsini, "Mediasiya haqqında Qanun" və digər qanunları, BMT-nin ayrı-ayrı qərarlarını, Avropa Şurası Nazirlər Komitəsinin bir sıra tövsiyələrini, habelə bir sıra xarici dövlətlərin normativ hüquqi aktlarını tədqiqatın normativ əsası kimi qeyd etmək olar.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsasları və nəticələri müəllif tərəfindən nəşr etdirilmiş elmi məqalələrdə, beynəlxalq və milli səviyyəli konfranslarda edilmiş çıxışlarda və Universitetin hüquq fakültəsinin əməkdaşları qarşısında edilmiş məruzələrdə əksini tapmışdır. İddiaçı mövzu ilə bağlı müxtəlif beynəlxalq konfranslarda çıxış etmişdir.

**Tədqiqat işinin quruluşu.** Dissertasiya işi Girişdən (3-17 səhifə), yeddi yarımfəsli əhatə edən üç fəsildən (17-124 səhifə), nəticədən (124-134 səhifə), istifadə edilmiş ədəbiyyat siyahısından (134-145 səhifə), əlavələrdən (145-147 səhifə), bütövlükdə isə 147 səhifədən (38760 sözdən) ibarətdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasında, kafedranın professor və müəllim heyətinin köməkliyi ilə yerinə yetirilmişdir.

# İŞİN ƏSAS MƏZMUNU

**Giriş** hissədə mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi göstərilmişdir.

İşin **"Cinayət prosesində mediasiya institutunun anlayışı, mahiyyəti, əhəmiyyəti və tarixi inkişafı"** adlanan **birinci fəsli** üç paraqrafdan ibarətdir.

Birinci fəslin **"Cinayət prosesində mediasiya institutunun anlayışı, mahiyyəti və əhəmiyyəti"** adlanan birinci paraqrafında qeyd edilir ki, cinayətkarlıqla mübarizə siyasətinin hüquqi tənzimetmə mexanizminin təkmilləşdirilməsi üçün insan mənafeyinin nəzərə alınması mühüm vəzifələrdən biridir. Cinayət-hüquqi siyasətdə bu istiqamətlərdən biri barışıq institutu və onun təzahürlərindən biri olan mediasiyadır.

Avropa Şurası Nazirlər Komitəsinin 15 sentyabr 1999-cu il R (99) 19 saylı "Cinayət işləri üzrə mediasiya haqqında" Tövsiyəsində mediasiyaya verilmiş tərif məsələnin beynəlxalq hüquqi aspektləri baxımından uğurlu olsa da, milli hüquq sistemlərinin özünəməxsus cəhətləri baxımından uğurlu sayıla bilməz. Belə ki, fikrimizcə, həmin tərifə daxil edilmiş hakim tərəfindən mediasiya ilə bağlı həyata keçirilən tədbirlər mediasiya kimi deyil, klassik ədalət mühakiməsinin tərkib hissəsi kimi nəzərdən keçirilməlidir.

Cinayət mühakimə icraatında mediasiya dedikdə, təqsirləndirilən şəxs və zərər çəkmiş şəxsin üçüncü qərəzsiz şəxsin köməyi ilə yaranan cinayət-hüquqi mübahisəni həll edən hər iki tərəf üçün qəbul edilən barışıq sazişinin işlənib hazırlanması və qəbul edilməsi prosesi başa düşülür.

Mediasiyanın klassik ədalət mühakiməsindən köklü fərqi ondan ibarətdir ki, cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı ilk növbədə, təqsirləndirilən şəxsin cinayət məsuliyyəti barədə məsələ həll olunur və eyni zamanda cinayətin

törədilməsi ilə bilavasitə vurulan ziyanın ödənilməsi ilə bağlı məsələ də öz həllini tapır. Mediasiya prosesində isə, əksinə təqsirləndirilən şəxsin məsuliyyəti məsələsi cinayətlə vurulan ziyanın ödənilməsi və aradan qaldırılmasından asılı olaraq həll olunur.

Mediasiya ilə bağlı məsələlər cinayət-prosessual hüquqla bağlı olsa da, həmin prosesin özü bilavasitə cinayət-prosessual fəaliyyət çərçivəsində həyata keçirilmir.

Hüquq sistemində mediasiyanın tətbiqi təkcə araşdırılan və həll olunan işlərin sayının azaldılması ilə nəticələnmir, həm də tərəflər arasındakı mübahisə ilə bağlı ictimai münasibətlərdə əmələ gələn gərginlik və sosial ziddiyyətləri də aradan qaldırmış olur.

Birinci fəslin **“Azərbaycan Respublikasının cinayət prosesində mediasiyanın tarixi inkişafı”** adlanan ikinci paraqrafında qeyd edilir ki, mediasiya məsələlərinin həlli XIX əsrin əvvəllərində Azərbaycan ərazisində mövcud olan şəriət məhkəmələrində qazinin üzərinə düşən əsas vəzifələrdən biri idi. Yəni cinayət nəticəsində dəymiş ziyanın ödənilməsi və tərəflərin barışması ilə cinayət məsuliyyətindən azadetmə qazının əsas vəzifəsi idi. Buna görə də, mediasiya məsələlərinin müasir dövrdə milli hüquq sistemində təfərrüatı ilə geniş tənzimlənməsinin tarixi əsasları və şərtləri mövcuddur. Bununla belə, cinayət-prosessual qanunvericiliyin reteospektiv təhlili onu göstərir ki, mediasiya institutunun əsas cəhəti olan cinayət təqibinə diskression səlahiyyətlər əsasında xitam verilməsi 1864-cü il CMİN-də yox idi. 1923-cü il tarixli Azərbaycan SSR CPM-ə isə mediasiyanın ilkin şərti olan cinayət təqibinin diskression səlahiyyət əsasında başlamamaq və ya başlanmış cinayət təqibindən imtina etmək hüququ 1930-cu ildə 4-a maddəsi kimi əlavə olunmuşdu. Həmin maddəyə görə, müqəssir tərəfindən edilən əməllərdə rəsmən olsa da, ümum üçün təhlükəli əməllər əlamətləri olub, lakin özünün az əhəmiyyətli olduğu və zərərli nəticələri olmadığı və ya müəyyən ictimai-siyasi şəraitə görə ümumi təhlükəli xarakterli olmadığı hallarda cinayət təqibi qaldırılmaya bilər, qaldırılmış cinayət təqibi isə hər bir dövründə xətm edilə bilərdi. 1960-cı il tarixli Azərbaycan SSR CPM-də mediasiya məsələlərini nəzərdən keçirib təhlil etsək, bununla bağlı heç bir müddəaya rast gəlmək mümkün deyildir.

Birinci fəslin **“Mediasiya institutunun cinayət prosesinin bəzi prinsipləri ilə qarşılıqlı əlaqəsi”** adlanan üçüncü paraqrafında, ilk növbədə, mediasiya və məsuliyyətin labüdlüyü prinsipi arasındakı əlaqəyə münasibət bildirilərək qeyd edilir ki, məsuliyyətdən azadetmə institutunu nəzərdə tutmaqla qanunverici məsuliyyətin labüdlüyü prinsipindən imtina edərək heç də hər bir halda cinayətə görə cəzalandırmanı qəbul etmədiyini ifadə etmişdir.

Mediasiya ilə qarşılıqlı əlaqəsi maraq doğuran daha bir prinsip təqsirsizlik prezumpsiyasıdır. Mediasiya çərçivəsində şəxsin cinayət məsuliyyətindən azad olunması müvafiq əməlin törədildiyi və şəxsin ona aidiyyətinin olduğunu təsdiqləsə də, əməli törədən şəxsin bu əməldə təqsirli olduğunu söyləməyə əsas vermir. Bu baxımdan hesab edirik ki, barəsində barışma ilə cinayət təqibinin xitam olunması haqqında qəbul olunmuş qərarın digər şəxslərin işləri üzrə hüquqi qüvvəsi CPM-in 65.2-ci maddəsindəki kimi məhkəmə üçün məcburi hüquqi qüvvəsi olmamalıdır.

Paraqrafda belə bir yekun fikir əsaslandırılır ki, mediasiya ilə cinayət prosesinin qüvvədə olan təqsirsizlik prezumpsiyası və məsuliyyətin labüdlüyü prinsipləri arasında ziddiyyət yoxdur, əksinə qüvvədə olmayan keçmişdən qalma bəzi müddəalar bu institutun inkişafına mane olur və onun hüquq sistemində genişləndirilməsinə əngəl törədir.

İşin **“Cinayət prosesində mediasiya ilə bağlı beynəlxalq standartlar və bəzi xarici ölkələrin təcrübəsi”** adlanan **ikinci fəsli** iki paraqrafdan ibarətdir.

İkinci fəslin **“Cinayət prosesində mediasiya ilə bağlı münasibətlərin beynəlxalq hüquqi tənzimlənməsi”** adlanan birinci paraqrafında göstərilir ki, beynəlxalq hüquqda mediasiyanın tətbiqini nəzərdə tutan bir çox universal və regional müqavilələr mövcuddur. Bu mənbələri mediasiyanın tənzimetmə predmeti baxımından iki yerə ayırmaq olar: dolayısı ilə mediasiya ilə bağlı normaları özündə əks etdirən müqavilələr və bilavasitə mediasiya ilə bağlı normaları özündə əks etdirən müqavilələr.

Birinci növ mənbələrə insan hüquqları ilə bağlı normaları özündə birləşdirən universal müqavilələri aid etmək olar. Belə ki, “Siyasi və Mülki hüquqlar haqqında” 1966-cı il Paktının 14-cü, 15-ci

maddələrində; "Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında" Bəyannamənin 7-ci bəndində; BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası"nda, BMT-nin "Uşaqlarla bağlı ədalət mühakiməsinin minimal standartları"nda, "Qadınlara qarşı diskriminasiyanın bütün formalarının ləğv edilməsi barədə" BMT Konvensiyasında, "Uşaq hüquqlarının həyata keçirilməsi barədə" Avropa Kovensiyasında və s. bu kimi sənədlərdə mediasiya ilə əlaqədar tələblərə rast gəlmək olar.

İkinci növ mənbələrə gəlincə, vurğulanır ki, AŞ NK hüquq sistemində bilavasitə mediasiya ilə bağlı tövsiyə xarakterli 4 qətnamə qəbul edilmişdir:

1) 21 yanvar 1998-ci il tarixli, №R (98) 1 saylı "Ailə mediasiyası haqqında" tövsiyə;

2) 15 sentyabr 1999-cu il tarixli, №R (99) 19 saylı "Cinayət işləri üzrə mediasiya haqqında";

3) 5 sentyabr 2001-ci il tarixli, Rec (2001) 9 saylı "İnzibati orqanlar və özəl tərəflər arasında məhkəmə baxışına alternativlər" haqqında;

4) 18 sentyabr 2002-ci il Rec (2002) 10 saylı "Mülki işlərdə mediasiya haqqında".

Bununla yanaşı, Avropa Şurası Nazirlər Komitəsi mediasiya ilə bağlı ayrı-ayrı məsələləri başqa qətnamələrində də nəzərə almış və bununla bağlı üzv dövlətlərə tövsiyələr etmişdir. Belə qətnamələrdən biri AŞ NK-nin Rec (2000) 19 saylı 6 oktyabr 2000-ci il tarixli tövsiyəsidir. Tövsiyədə prokurorluğun əlavə vəzifələrindən biri kimi mediasiya ilə bağlı məsələlər göstərilmişdir.

Paraqrafda belə bir nəticə əsaslandırılır ki, cinayət prosesində mediasiyanın institusional olaraq milli hüquq sisteminə implementasiyası zəruri vəzifələrdən biridir.

İkinci fəslin **"Bəzi xarici ölkələrin cinayət prosesində mediasiya məsələləri"** adlanan ikinci paraqrafında isə qeyd edilir ki, xarici ölkələrin cinayət-hüquq nəzəriyyəsində mediasiya hüquqi mübahisənin qanuni həllinin müxtəlif variantlarını nəzərdə tutan sürətləndirilmiş və ya tolerant mühakimə icraatı kimi nəzərdən keçirilir, qanunverici və hüququ tətbiq edənlər bu institutdan cinayət-

prosessual prosedurların sadələşdirilməsi mexanizmi kimi istifadə edirlər.

Mediasiya institutu bəzi ölkələrdə CPM-də tənzimlənir, digərlərində ayrıca qanunvericilik aktlarında (məsələn, Qazaxıstanda), həmçinin yuvenal ədliyyə barədə aktlarda, bəzilərində isə hüquqi baxımdan ayrıca tənzimlənməsə də (İngiltərə), *de facto* cinayət-prosessual hüquqi tənzimetmədən kənarda mövcuddur.

Hüquq ədəbiyyatında cinayət prosesində mediasiyanın digər bir təsnifat meyarı kimi medasiyanın yaranmasının ilkin şərtləri və hüquqtətbiqi təcrübəyə daxil edilməsi əsas götürülür. Bunun əsasında anqlo-sakson və kontinental modellər fərqləndirilir. Anqlo-sakson model çərçivəsində mediasiyaya vurulmuş ziyanın bərpası ədliyyəsi nəzəriyyəsinin təzahürü kimi yanaşılır. Burada mediasiya cinayət hüquqi mübahisələrin ictimai həlli üsulu kimi nəzərdən keçirilir, buna görə də, dəqiq şəkildə qanunvericiliklə nizamlanmır. Bu qrupa İngiltərə, ABŞ, Kanada, Yeni Zelandiya və s. aid olunur. Bu modelə aid olan ölkələrdə mediasiya ümumi şəkildə "mübahisələrin alternativ qaydada həlli" adlandırılan mülki mübahisələrin həllinin xüsusi mexanizmlərinin yaranması prosesində inkişaf etmişdir.

Kontinental model çərçivəsində mediasiya prosessual institut kimi nəzərdən keçirilir və adətən, cinayət təqibinə alternativ olaraq qanunvericilikdə təsbit olunur. Bu qrupa Fransa, Almaniya, Portuqaliya, Avstriya, Norveç və s. aid etmək olar. Bu qrup ölkələrdə mediasiya məhkəmə və ya prokurorun təşəbbüsü ilə başlanır. Onu da qeyd etmək lazımdır ki, bəzi xarici ölkələrdə qurban və yetkinlik yaşına çatmış pozuntu törədən şəxs arasında mediasiya posedurları CPM-də, həmçinin eyni zamanda CM-də təsbit olunmuşdur. Almaniya və Fransa CPM-ində yetkinlik yaşına çatmayanların mediasiyası ilə bağlı məsələlər tənzimlənmişdir.

Dissertasiya işinin bu paraqrafında Türkiyə, Finlandiya, Portuqaliya, İngiltərə, Almaniya, Belçika və İsveç kimi bir sıra nüfuzlu ölkələrin təcrübəsi öyrənilmiş, onların qanunvericilik aktları müqayisəli təhlil edilmiş və qeyd olunan ölkələrdə mediasiya institutunun əsas fərqli xüsusiyyətləri izah edilmişdir.

İşin **“Cinayət mühakimə icraatının məhkəməyədək və məhkəmə mərhələsində mediasiyanın hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məsələləri”** adlanan **üçüncü fəsli** iki paraqrafdan ibarətdir.

Üçüncü fəslin **“İbtidai araşdırma mərhələsində mediasiya institutunun hüquqi tənzimlənməsi məsələləri”** adlanan birinci paraqrafında qeyd edilir ki, ibtidai araşdırmada mediasiyanın mövcudluğunun normativ əsası kimi Konstitusiya Məhkəməsinin “AR CPM-in 37.4, 39.1.9, 40.2 və 41.7-ci maddələrinin şərh edilməsinə dair” 15 iyul 2011-ci il tarixli qərarı çıxış edir. Həmin qərarda AR CM-in 73-cü (buraya CM-ə əlavə olunan 73-1 və 73-2-ci maddələri də əlavə etmək olar – müəl.) maddəsi sadə mediasiyanın hüquqi əsası kimi təqdim edilir.

Paraqrafda belə bir sual qoyulur ki, əməli törətmiş şəxslə zərər çəkmiş şəxsin barışması halında icraata cinayət təqibini istisna edən hal kimi xitam verilməsi mediasiya sayılmalıdırmı? Aparılan təhlillər əsasında qoyulan sual belə cavablandırılır ki, bu əsaslarla cinayət təqibinin xitam olunması sadə mediasiya kimi yuxarıda qeyd olunan mediasiyanın qeyri-formal növünə aid oluna bilər. Bu hallar da mediasiya kimi nəzərdən keçirilə bilər.

Bu paraqrafda sərgilənən mövqelərdən biri ondan ibarətdir ki, ayrı-ayrı cinayət işləri üzrə mediasiya prosesinin səmərəliliyini təmin etmək üçün köməkçi hüquq sahələrində, xüsusən kriminalistikada, hüquq psixologiyasında təqsirləndirilən şəxs və zərər çəkmiş şəxslə ünsiyyətin uğurlu bitməsi üçün taktiki tövsiyələr, uyğunlaşdırılmış elmi nəticələr işlənib hazırlanmalıdır.

Mediasiya ilə bağlı ən əhəmiyyətli məsələlərdən biri də, mediasiya prosesinin hansı müddətdə həyata keçirilməsindən ibarətdir. Hesab edirik ki, zərər çəkmiş şəxs mediasiya prosesinin davam etdrilməsinə etiraz etmirsə və ya bu prosesin həyata keçirilməsinə razılıq veribsə, burada müddətin ciddi bir əhəmiyyəti olmamalıdır. Yekunda bu prosesin nəticəsinin uğurla başa çatmayacağı ehtimalını nəzərə alsaq, müddət axımının dayandırılması yanaşmasını uğurlu saymaq olar.

Üçüncü fəslin “**Məhkəmə mərhələsində mediasiyanın həyata keçirilməsinin hüquqi tənzimlənməsi məsələləri”** adlanan ikinci

paraqrafında isə göstərilir ki, məhkəmə mərhələsində mediasiyanın mümkünlüyü ən ciddi suallardan biridir.

Məhkəmə mərhələsində mediasiyanın həyata keçirilməsi və ya barışma əsasında cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları üzrə icrata xitam verilməsi ümumi qayda deyildir. Bunu aşkar şəkildə CPM-in 40-cı maddəsinin məzmunundan da, görmək olar. CPM-in 40-cı maddəsi cinayət təqibini həyata keçirməməyə imkan verən halların ümumi əsaslarını və prosessual qaydasını müəyyən edir. Bu maddədə belə bir qərarın ümumi qayda olaraq ibtidai araşdırma orqanları tərəfindən qəbul edilməsi səlahiyyəti təsbit olunur. Bu məntiqli bir qərardır. Məlumdur ki, məhkəmə cinayət təqibini başlamır və cinayət təqibinin həyata keçirilib-keçirilməməsi məsələsini həll etmək səlahiyyətinin bilavasitə ona məxsus olmaması da məntiqlidir. Bu baxımdan məhkəmə mərhələsində mediasiyanın və ya barışmanın tətbiq olunmaması ümumi qaydadır. Lakin müəyyən hallarda məhkəmə mərhələsində də mediasiya məsələləri meydana çıxa bilər. Mümkündür ki, iş üzrə icraata barışma əsasında xitam verilməsi əsaslarının mümkünlüyü diqqətdən kənarda qalsın və ya bu əsaslar ibtidai araşdırma dövründə deyil, daha sonra meydana gəlmiş olsun. İrəli sürülən ittihamın dəyişməsi, məhkəmənin öz təşəbbüsü və ya tərəflərin vəsatəti əsasında məhkəmə baxışında cinayətin tövsifinin dəyişməsi, həmçinin yeni cinayət qanunu ilə cinayət təqibinin barışma əsasında xitamının mümkünlüyü müddəasının qanunvericiliyə daxil edilməsi ilə məhkəmə mərhələsində mediasiya realizə oluna bilər.

Paraqrafın məzmununda aparılmış təhlillərin yekunu olaraq belə bir nəticəyə gəlinir ki, məhkəmə mərhələsində mediasiyanın həyata keçirilməsinin ayrıca maddədə tənzimlənməsi daha məqsədəuyğundur. Bu maddədə aşağıdakı məlumatlar öz əksini tapa bilər:

- məhkəmədə mediasiyanın əsasları və şərtləri;
- mediasiyanın təyin olunması üzrə səlahiyyətli şəxslərin hüquqları;
- mediasiyanın təyin edilməsinin prosessual qaydası;
- mediatorun və iştirakçıların barışma ilə bağlı hüquq və vəzifələri,

- barışmanın baş tututacağı və ya baş tutmayacağı halda hüquqi nəticələrini izah etmək vəzifəsi;

- mediasiyanın hakim tərəfindən həyata keçirilə biləcəyi halların dairəsi və s.

**Nəticə** hissəsində əsas nəzəri ümumiləşdirmələr və təkliflər sistemləşdirilmiş şəkildə təqdim edilmişdir.

**Əlavə** hissəsində hüquq-mühafizə orqanları əməkdaşları arasında keçirilmiş rəy sorğusunun məzmunu və nəticələri yerləşdirilmişdir.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Azərbaycan Respublikasının cinayət prosesində mediasiya: ümumi müddəalar // Qanun, 2017, № 03 (269), s. 123-128.
2. Azərbaycan Respublikasının cinayət prosesində mediasiya institutunun inkişaf tarixi haqqında // Qanun, 2017, № 10 (276), s. 115-121.
3. Some notes on the institution of mediation in criminal proceedings of Azerbaijan // «Правозастосування: теорія, методологія та практика» Збірник матеріалів Міжнародного юридичноі наукого-практичноі конференціі. Тези наукових доповідей. Украіна, Киев, 2017, с. 105-108.
4. Mediasiya institutunun cinayət prosesinin əsas prinsipləri və vəzifələri kontekstində bəzi ümumnəzəri məsələləri // Qanun, 2019, № 06 (296), s. 84-88.
5. “Mediasiya” institutunun cinayət prosesində tətbiqi haqqında mülahizələr // Qanun, 2019, № 07 (297), s. 49-56 (M.S. Qəfərovla həmmüəlliflikdə).
6. Ekspertin mediator kimi fəaliyyəti: nəzəriyyə və qanunvericilik // Polis Akademiyasının xəbərləri, 2020, № 1 (25), s. 93-96.
7. Mediasiya hüquq institutunun təkmilləşdirilməsinin ədalət mühakiməsində yaradacağı yeni tendensiya // “Regional inkişafın təmin olunmasında innovativ tendensiyalar: reallıqlar və müasir

çağırışlar” mövzusunda Respublika elmi konfransının materialları. Mingəçevir Dövlət Universiteti, 11-12 dekabr 2020-ci il, s. 474-477.

8. Xarici ölkələrin cinayət mühakimə icraatında mediasiya məsələləri // “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər” mövzusunda I Beynəlxalq elmi konfransın materialları. Mingəçevir Dövlət Universiteti, 10-11 dekabr 2021-ci il, s. 366-369.

9. О перспективах медиации в уголовном судопроизводстве Азербайджанской Республики // Право и государство: теория и практика, 2021, № 11 (203), с. 250-252.

Dissertasiyanın müdafiəsi 24 06 2023-cü il tarixində, saat 11:00-da Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Mərdəkan pr. 30.

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 24 05 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.05.2023-cü il

Kağızın formatı: A5 (210 x 148 mm)

Həcm: 5844 işarə

Tiraj: 120